# Vətənə sədaqətli insan




Elə şəxsiyyətlər var ki, doğulduğu elə-obaya, Vətənə başucalığı gətirirlər. Onların işığı, haləsi sınırları, sərhədləri aşıb keçir, alqış ünvanına, and yerinə çevrilirlər. Torpaq, yurd belə kişilərdən güc alır, belə kişilərlə ucalır.

Hacı Mirhaşım Talışlı Müsafir təkcə cənub bölgəsinin yox, Azərbaycanın sayılıb-seçilən ziyalılarından, ağsaqqallarındandır. Ulu babası Lənkəran xanı Mirmustafa xanın ocağının layiqli övladı, 90 yaşlı xeyirxahlıq, ucalıq, ləyaqət timsalı olan Mirhaşım müəllim bir şairin dediyi kimi "alnından ay doğan adamdı".

Filologiya üzrə elmlər doktoru Yədulla Ağazadənin "Elm və təhsil" nəşriyyatında yenicə çapdan çıxmış "Tarixləşən, əbədiləşən ustad" kitabı Lənkəran torpağının yetişdirdiyi, Azərbaycana və dünyaya bəxş etdiyi nadir bir ziyalıdan—ədəbiyyatşünas alim, şair, Əməkdar müəllim, Prezident təqaüdçüsü Hacı Mirhaşım Talışlıdan, onun keçdiyi maraqlı və zəngin həyat yolundan bəhs edir.

Kitabın redaktoru, Prezident təqaüdçüsü, pedaqoji elmlər doktoru, professor Əjdər Ağayevin qeyd etdiyi kimi "...Bəlkə də onun nurani siması ona görə bu qədər işıqlıdır ki, o, şərəfli Novruz bayramında – mart ayının 21-də baharla birlikdə dünyaya qədəm basıb. Bəlkə də ona görə maarifsevər ziyalılar kimi tanınmış Axund Mirmustafa xanın nəvəsi, Mirmurtuza ağanın oğlu olaraq şeirə, sənətə, maarifə, dinə, imana bağlı insanlar arasında böyüyüb, tərbiyə alıb. Atası Mirmurtuza Talışlı hələ 1915-ci ildə Lənkəranda nəşr olunan "Lətif" ("Lətifələr") qəzetinin redaktoru olmuş, uzun müddət ümumtəhsil məktəblərində dərs demişdir".

Bu ocağın işığını, hərarətini səngiməyə, sönməyə qoymayan Mirhaşım Talışlı 70 ildən artıq bir müddətdə maarifi, mədəniyyəti, poeziyanı, böyük hərflərlə yazılacaq İNSANLIĞI ləyaqətlə təmsil edir.

Zəngin ənənəsi olan ədəbiyyatımızın ən ləyaqətli təmsilçilərindən olan Mirhaşım müəllim XIX əsrin ortalarında Mirzə İsmayıl Qasir tərəfindən əsası qoyulmuş "Fövcül-füsəha" ədəbi məclisini davam etdirərək, Lənkəranda ədəbi yaradıcılıq məktəbi yaratmışdır.

Son dərəcə maraqlı və zəngin faktlarla süslənmiş bu kitabı oxuduqca, mənalı, şərəfli bir ömür yolu keçmiş, ömründə ömürlər yaşadan müdrik bir el ağsaqqalının, ziyalının taleyi ilə tanış oluruq. Yaxın dostlarının, doğmalarının Mirhaşım müəllim haqqında xatirələri, ürək sözləri, məktublar, sənədlər, ədəbi nümunələr, rəngarəng şəkillər yeni nəşrə bir gözəllik gətirmişdir.

Filologiya üzrə elmlər doktoru Yədulla Ağazadənin son dərəcə zövqlə, səliqə-sahmanla, sevgilə üzə çıxardığı bu nəfis nəşr nümunəsi Hacı Mirhaşım Talışlının portret cizgilərini qabarıq canlandırmışdır.

Bir nəslin timsalında böyük bir tarixi vərəqləmək imkanı qazanan oxucu, həm də o dövrün mənzərəsini gözləri önündə canlandırır.

Ulu öndər Heydər Əliyevin Lənkərana səfəri zamanı ustad ziyalımız Hacı Mirhaşım Talışlı haqqında dediyi fikirlər ümumən ziyalılığa verilən yüksək dəyərdir: "Bizim dostumuz, Lənkəranın ən böyük ziyalılarından biri Mirhaşım Talışlının burada oxuduğu şeir məni çox heyran etdi. Buna görə ona xüsusi təşəkkür edirəm. Lənkəranın həmişə böyük, yüksək ziyalı insanları olubdur. Mən bir dəfə televizora baxırdım. Lənkərandan veriliş gedirdi. Mirhaşım Talışlı Lənkəranın tarixi, keçmişi haqqında danışır, söhbət aparırdı. Siz bunları yaxşı bilirsiniz. Amma mən sizə deyim, bu verilişə diqqətlə, axıradək baxdım. Nə qədər ağıllı, nə qədər zəkalı bir insandır, nə qədər Azərbaycanı sevən bir insandır, nə qədər Azərbaycana sədaqətli bir insandır. Mən sizə təşəkkür edirəm.

Bu gün oxuduğunuz şeir adi şeir deyildir. Bu, həm də şeir sənətinin ən yüksək nümunəsidir. Azərbaycanın son beş ildə keçdiyi yolu əks etdirən bir əsərdir. Çox sağ olun, təşəkkür edirəm!"

Mirhaşım müəllimin yetişdirdiyi gənclik öz dövlətinə, dövlətçiliyinə şərəflə xidmət edir.

Kitabda toplanmış yazılarda dünəndən sabaha uzanan qırılmaz bağ, bir körpü var. Dünənlə sabahı birləşdirənsə 90 illik şərəfli bir ömür yaşamış Mirhaşım Talışlıdır.

Azərbaycan Prezidenti İlham Əliyevin 2006-cı il 14 avqust tarixli Sərəncamında oxuyuruq:"Azərbaycan ədəbiyyatının inkişafında böyük xidmətləri olan Mirhaşım Mirmurtuza oğlu Talışlıya Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin".

Ölkə Prezidentinin əsl ziyalı əməyinə verdiyi qiymət həm də şərəfə, ləyaqətə, ucalığa, əyilməzliyə, dünənə, bu günə, sabaha verilən qiymətdir.

"Tarixləşən, əbədiləşən ustad" kitabı sözün qədrini, dəyərini bilən, onun müqəddəsliyini qoruyan bir insana qoyulmuş abidədir.

Vaxtdan, zamandan ucada dayanan bu canlı abidə —90 yaşlı Hacı Mirhaşım Talışlı Azərbaycanın hər yerindən görünür. Görünən dağa nə bələdçi...

**Zülfüqar ŞAHSEVƏNLİ,**
**"Respublika".**